**Məlumat bülleteni**

**Əsasnamə qüvvəyə mindi – sonra nə baş verəcək?**

Əlillərin hüquqlarına dair Əsasnaməni təsdiq edən ölkə, əmək qabiliyyətini itirmiş insanları başqa insanlarla olduğu halda kimi müəyyən olunmuş haqlara malik qanun subyektləri qismində hesaba almaq öhdəliyini öz üzərilərinə götürürlər. Əsasnaməni dəstəkləyən dövlətlər, sazişdə müəyyən edilmiş qaydada milli qanunvericiliyi uyğunlaşdırmalıdırlar.

Hal hazırda Əsasnaməni 25 ölkə təsdiq edib, eyni zamanda 120-dən artıq ölkə imzalayıb, və bu onların gələcəkdə əsasnaməni təsdiq etmək arzusunun göstəricisidir. Əsasnamə və müvafiq fakültativ protokol 3 may 2008-ci ildə qüvvəyə mindi. Üzv ölkələrin birinci konfransında, Əsasnaməni təsdiq etmiş dövlətlər, gələcəkdə Əsasnamənin şərtlərinin həyata keçirilməsi yolunda əldə edilmiş irəliləyiş haqda üzv ölkələr tərəfindən vaxtaşırı hesabatlar əldə edən əlillərin haqları üzrə Komitənin müstəqil ekspertlərini seçəcəklər. Üzv ölkələr məcburi sürətdə xüsusi dövlət icra orqanı və eynə zamanda Əsasnamənin şərtlərinin həyata keçirilməsinə dair milli mexanizmləri yaratmalıdırlar.

Fakültativ protokolun şərtlərinə əsasən, protokolu təsdiq edən ölkələr sırasından ayrı-ayrı şəxslər, və ya bir qrup şəxs, problemin həlli üçün bütün milli imkanlar tükəndiyi halda Komitəyə nəzəri baxış üçün ərizə göndərmək hüququna malikdirlər.

**Əsasnamənin tamlığı.**

Əsasnamə fiziki çatışmazlığı olan insanların üzləşdiyi bütün maneələri əhatə edir. Ayrı-seçkilik (məsələn səs vermə hüququnda məhrum olunma), həmçinin sosial və iqtisadi maneələr olan işə qəbul zamanı diskriminasiya və qeyri-münasib yaşayış standartları.

Ən əsas suallardan biri olan əlverişliliyə dair Əsasnamə üzv ölkələrdən tələb edir ki, "elektron və təcili yardım xidmətləri daxil olmaqla" informasiya, kommunikasiya və digər xidmətlər"-ilə bağlı məsələlərdə maneələr müəyyən edilərək aradan qaldırılsın. Etibarlılıq həmçinin tikintiyə, yollara ,nəqliyyata və həmçinin məktəblər, yaşayış yerləri, tibb məntəqələri və iş yerləri də daxil olmaqla digər daxili və xarici xidmət vasitələrinə təqdim olunmalıdır. Ölkələr ümumi istifadə və müxtəlif xidmətlərə aid obyektlərin etibarlılığı haqqında minimal standartları işləyib hazırlamalı, həmçinin müvafiq ölçülər qəbul etməlidirlər ki, etibarlılıq məsələsi haqqında ictimai istiqamətdə fəaliyyət göstərən xüsusi təşkilatlar və xidmətlərin məlumatı olsun.

**Bütün bunlardan əlavə Konvensiyanı ratifikasiya etmiş ölkələr aşağıdakıları etməyə borcudurlar**

- Mülkiyyət hüququ, varisliyi əldə etmək hüququ, maliyyə əməliyyatlarını idarə etmək hüququ , həmçinin bank kreditlərinin də xidmətlərindən istifadə etmək daxil olmaqla bütün vətəndaşların qanun qarşısındakı bərabərliyini təmin etmək;

- İstismar, zorakılıq və sərt davranışların qarşısını almaq üçün müvafiq hüquqi və inzibati ölçülər qəbul etmək

- Sərt davranma qurbanlarına reabilitasiya imkanın yaradılması, həmçinin təqsirli şəxsin cəzalandırılması.

- Nəqliyyat vasitələrindən istifadə də daxil olmaqla, hərəkət azadlığının təmin olunması.

- Məktəb və ya iş yeri kimi "Obyektlərin uyğun olması"nın təmin edilməsi, yəni əlillərin iş şəraitinin yaradılmasına müvafiq olan modifikasiya və düzəlişlərin təqdim olunması.

- Əlillərin müstəqil yaşama və yayış yerinin azad seçmə hüququn təmin edilməsi

- Nikah və ailə qurmaq hüququn təmin edilməsi

- Əlil tələbələrin ümumi təhsil sisteminə daxil olunmasının təmini və müvafiq yardımın təqdim edilməsi

- Peşəkar tədris imkanlarının bərabər olunmasını təmin etmək, böyüklər üçün təhsil alma vasitələri

- Əllilərin xüsusi tələblərini nəzərə alaraq müvafiq tibbi xidmətlərin təmin olunması

- İşləmək hüququnu təmin etmək və işə qəbul zamanı ayrı-seçkiliyin qadağan olunması

- Əlillər üçün işə düzəltmə imkanın, müstəqil məşğulluq və sahibkarlıq fəaliyyətinin təmin olunması

- Müvafiq həyat səviyyəsinin və sosial müdafiənin, ictimai yaşayış yerinin təmin olunması daxil olmaqla, xüsusi tələblərin təmin olunmasında yardım və həmçinin maddi yardımın göstərilməsi.

- Ölkənin ictimai siyasi və mədəni həyatında iştirakın zəmanəti, müvafiq istirahətin təmini, asudə vaxtın keçirilməsi və idmanla məşğul olma

Konvensiyanın şərtlərini həyata keçirmək üçün müəyyən addımlar əlavə xərclər tələb edəcəklər. Buna baxmayaraq, Konvensiya əksər şərtlərinin ayrı-ayrı ölkələrin imkanları daxilində "proqressiv şəkildə həyata keçirilməsini" tələb edir. Məhdud resursları olan dövlətə əlil insanların hüquqlarına laqeydliyə son qoyulması məqsədi daşıyan beynəlxalq yardım təqdim edilir.

Konvensiyanın şərtlərindən irəli gələn dəyişikliklər təkcə əlillərə deyil, eyni zamanda, bütün digər vətəndaşlara da fayda gətirəcək. Məsələn, liftlər və xüsusi keçidlər hər bir şəxsin rahatlığını təmin edəcək. Konvensiyanın mahiyyət və məzmununun tələb etdiyi konstruktiv dəyişikliklər bütün insanların həyat şəraitinin yaxşılaşdırılmasına yönəlmiş ideya və yeniliklər üçün əsas olacaq. Konvensiyanın şərtləri maksimal dərəcədə bütün insanlar tərəfindən istifadə olunan məhsulların, ətraf mühitin, proqram və xidmətlərin "universal modelinin" tətbiq olunmasını təklif edir.

Beynəlxalq Bank tərəfindən həyata keçirilən tədqiqatlar təsdiq edirlər ki, yeni binaların tikinti zamanı əlil insanlar üçün istifadəyə uyğunlaşdırmağa minimum xərclər tələb olunur. Belə məlum oldu ki, binanın əlil insanlar üçün uyğunlaşdırılması, ümumi tikinti xərcinin 1%-dən az artmasına səbəb olur.

"Mahiyyətcə, əlil insanlara öz bacarıqlarından tam istifadəni təmin etmə iqtisadi cəhətdən də çox mühümdür " – deyə, BMT-nin Əlillərin hüquqları barədə Konvensiyanın həyata keçirilməsi üzrə Katibliyinin rəhbəri Akiko İto bildirdi. "Əlillərin yolunda olan maneələr yox olduqda onlar digər insanlar kimi işçi, sahibkar, istehlakçı, vergi ödəyicisinə çevrilirlər."

"Cəmiyyət bacarıqlı insanların böyük bir resursuna laqeydliklə yanaşır" – deyə xanım İto bildirdi. "Əlil insanlarda xüsusi bacarıq və qabiliyyətə malikdirlər. Tədqiqatlar göstərir ki, əlil insanlar tərəfindən olunan işin keyfiyyəti heç də əhalinin digər hissəsinin iş keyfiyyətindən geri qalmır, əksinə, bəzi hallarda hətta daha üstün olur. Gəlirin əldə edilməsinin yüksək əmsalı və işdən yayınmanın az olması əlillər üçün uyğun iş şəraitinin təmin olunması üçün həddindən artıq yüksək xərcləri ödəyir."

Xanım İto, eyni zamanda əlavə etdi: "Əlil insanların işə götürülməsinin əlavə xərclər tələb etməsindən olan qorxular çox şişirdilib". 2003-cü ildə ABŞ-da keçirilən tədqiqatlara əsasən, işəgötürənlərin

təqribən dörddə-üçü əlil işçilərin ümumiyyətlə heç bir xüsusi şərait tələb etməmələri barədə məlumat vermişlər. “Əlillərin ictimai həyatda tam cəlb olunması bizim hamımız üçün faydalı olacaq ”